Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# Əmək Məcəlləsində edilmiş dəyişikliklər haqqında

Azərbaycan Respublikası Prezidenti tərəfindən siyahısı təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında əmək münasibətlərinə dair əmək müqaviləsinin kağız üzərində yazılı formada bağlanması halları istisna olmaqla, əmək münasibətləri elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilmiş son dəyişikliklərdən sonra “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanununa uyğun olaraq, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş işçilərlə ilk dəfə əmək müqaviləsinin bağlanması elektron informasiya sistemində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən elektron qaydada təqdim olunan məlumatlar əsasında qeydiyyata alınacaqdır.

Əmək Məcəlləsinə edilmiş digər dəyişiklik əmək müqaviləsinin hüquqi qüvvəyə minməsi ilə bağlıdır. Belə ki, bundan sonra “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna uyğun olaraq, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə ilk dəfə bağlanmış əmək müqaviləsi həmin Qanunla müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan hüquqi qüvvəyə minəcəkdir. Elektron informasiya sisteminə Vergilər Nazirliyi tərəfindən daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə və Vergilər Nazirliyinə elektron qaydada məlumat göndəriləcəkdir.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/41136
http://e-qanun.az/code/7